# Slovakiya Milli Təqaüd Proqramı çərçivəsində 2024-2025-ci tədris ili üzrə Slovakiya Respublikasının ali təhsil və tədqiqat müəssisələrində qısamüddətli təcrübə proqramı

**Ümumi məlumat**

Slovakiya Respublikası 2024-2025-ci tədris ili üzrə xarici tələbələr, doktorantlar, universitet müəllimləri, tədqiqatçılar və incəsənət sahəsində fəaliyyət göstərən şəxslər üçün Slovakiya Milli Təqaüd Proqramı çərçivəsində Slovakiya Respublikasının ali təhsil və tədqiqat müəssisələrində qısamüddətli təcrübə proqramı elan edir.

Slovakiya Respublikasının Milli Təqaüd Proqramı Slovakiya Respublikasının dövlət büdcəsindən, uyğun olaraq Slovakiya Respublikasının Təhsil, Elm, Tədqiqat və İdman Nazirliyi tərəfindən maliyyələşdirilir.

Təqaüd proqramına müraciət şərtləri aşağıda qeyd olunmuşdur.

**Ölkə:** Slovakiya
**Müddəti:** Magistratura səviyyəsində təhsil alan tələbələr üçün 1-2 tam semestr (4-5 və ya 9-10 ay) və ya 1-3 tam trimester (tədris ili trimesterlərə bölündüyü halda), doktorantlar üçün 1-10 ay, müəllimlər, tədqiqatçılar və incəsənət sahəsində fəaliyyət göstərən şəxslər üçün 1-10 ay.
**Müraciət üçün son tarix:** **30 aprel 2024, saat 16:00** (Mərkəzi Avropa vaxtı ilə (CET)). Ərizələr onlayn şəkildə **www.scholarships.sk** internet səhifəsi vasitəsilə göndərilməlidir.

**Uyğunluq:**

A. Tələbələr:

- Xarici universitet tələbəsi olmalıdırlar (Slovakiyadan kənar);
- Magistratura səviyyəsində təhsil almalı və ya müraciətin son tarixi zamanı təhsil aldıqları universitetdə eyni/oxşar təhsil proqramında ən azı 2,5 illik universitet təhsilini başa vurmuş olmalıdırlar;

- Proqram müddətində Slovakiyada qalmalı və akademik mobillik üçün Slovakiyadakı dövlət və ya özəl ali təhsil müəssisəsi tərəfindən qəbul olunmalıdırlar.

Yuxarıda göstərilən hər üç tələb ödənilməlidir. Tələbələr üçün təqaüd müddəti: 1-2 tam semestr (4-5 və ya 9-10 ay) və ya 1-3 tam tri-mester (tədris ili tri-mesterlərə bölündüyü halda)

B. Doktorantlar:

- Ali təhsili və ya elmi hazırlığı Slovakiyadan kənarda olmalı və Slovakiyadakı dövlət və ya özəl ali təhsil müəssisəsi və ya elmi-tədqiqat müəssisəsi tərəfindən qəbul olunmalıdır.

Doktorantlar üçün təqaüd müddəti: 1-10 ay.

C. Müəllimlər, tədqiqatçılar və incəsənət sahəsində fəaliyyət göstərən şəxslər

- Biznes şirkəti olmayan, Slovakiyada öz ofisi olan, tədqiqat və təkmilləşdirmə işləri aparmaq hüququna dair etibarlı sertifikatı olan bir qurum tərəfindən Slovakiyada tədris/tədqiqat/incəsənət fəaliyyəti ilə məşğul olmaq üçün qalmağa dəvət olunan müəllimlər, tədqiqatçılar və incəsənət sahəsində fəaliyyət göstərən şəxslər.

Müəllimlər, tədqiqatçılar və incəsənət sahəsində fəaliyyət göstərən şəxslər təqaüd müddəti: 1-10 ay.

**Maliyyələşmə:**

Təqaüdün məbləği

a) Magistratura tələbələri üçün- 620 EUR;

b) Doktorantura tələbələri üçün- 1025,50 EUR;

c) Universitet müəllimi/tədqiqatçı/incəsənətlə məşğul olan şəxslər üçün:

- Doktorantura dərəcəsi (və ya onun ekvivalenti) olmayan və eyni zamanda universitet müəllimi/tədqiqatçı/incəsənət xadimi kimi 4 ildən az iş təcrübəsi olan şəxslər üçün- 1025,50 EUR
- Doktorantura dərəcəsinə (və ya onun ekvivalenti) malik olan və eyni zamanda universitet müəllimi/tədqiqatçı/ incəsənət xadimi kimi 10 ildən az iş təcrübəsi olan şəxslər üçün- 1 370 avro
- Doktorantura dərəcəsi (və ya onun ekvivalenti) malik olan və eyni zamanda universitet müəllimi/tədqiqatçı/ incəsənət xadimi kimi 10 ildən çox iş təcrübəsi olan- 1 470 avro.

Əlavə olaraq magistratura tələbələri və doktorantlara səyahət qrantı da verilə bilər. Səyahət qrantı birdəfəlik verilir və təqaüdçüyə qaldığı müddətin sonunda son təqaüd ödənişi ilə birlikdə ödənilir. Səyahət qrantının məbləği ərizəçinin yaşayış yeri (daimi ünvanı) ilə Slovakiyada qaldığı yer (qəbul edən təşkilatın ünvanı) arasındakı məsafədən (birbaşa xətt üzrə) asılıdır:

- 200 km-ə qədər məsafə - 0 €,
- məsafə 200 km-dən çox, maks. 300 km – 50 €,
- məsafə 300 km-dən çox, maks. 500 km – 100 €,
- məsafə 500 km-dən çox, maks. 1 000 km – 250 €,
- 1 000 km-dən çox məsafə, maks.2 000 km – 350 €,
- məsafə 2 000 km-dən çox, maksimum 3 000 km – 500 €,
- məsafə 3000 km-dən çox, maks. 5 000 km – 750 €,
- məsafə 5000 km-dən çox, maks. 7 000 km – 1 100 €,
- 7 000 km-dən çox məsafə - 1 500 €.

**Tələb olunan sənədlər:**

A. Tələbələr üçün:

- CV;
- Motivasiya məktubu;
- Ətraflı tədris planı;
- İki tövsiyə məktubu (ərizəçinin universitet müəllimləri tərəfindən təqdim olunan);
- Universitetdən ərizəçinin cari tələbə statusunu sübut edən arayış;
- Bakalavr diplomu, diplom əlavəsi (dövlət imtahanı haqqında şəhadətnamə ilə birlikdə);
- Ərizəçinin Slovakiyadakı qəbul olunduğu ali təhsil müəssisəsi tərəfindən qalma müddətini göstərən qəbul/dəvət məktubu.

B. Doktorantlar üçün

- CV;
- Motivasiya məktubu;
- Ətraflı tədris/tədqiqat/incəsənət planı;
- Ərizəçinin dissertasiya rəhbəri tərəfindən verilmiş tövsiyə məktubu;

- Universitetdən və ya tədqiqat müəssisəsindən ərizəçinin cari doktorantura tələbəsi statusunu sübut edən arayış;
- Magistr diplomu, diplom əlavəsi (dövlət imtahanı haqqında şəhadətnamə ilə birlikdə);
- Tələb olunan formada nəşrlərin/bədii fəaliyyətlərin siyahısı (Forma);
- Ərizəçinin Slovakiyadakı qəbul olunduğu ali təhsil müəssisəsi və tədqiqat institutu tərəfindən qalma müddətini göstərən qəbul/dəvət məktubu.

C. Universitet müəllimi/tədqiqatçı/incəsənətlə məşğul olan şəxslər üçün:

- CV;
- Ətraflı tədris/tədqiqat/incəsənət planı;
- Ərizəçinin əldə etdiyi ən yüksək təhsil dərəcəsi üzrə diplomu;
- Tələb olunan formada nəşrlərin/bədii fəaliyyətlərin siyahısı (Forma);
- Ərizəçinin Slovakiyadakı qəbul olunduğu ali təhsil müəssisəsi və tədqiqat institutu tərəfindən qalma müddətini göstərən qəbul/dəvət məktubu.

Tələb olunan sənədlər və təqaüd proqramı barədə ətraflı məlumat almaq, həmçinin təqaüd proqramına müraciət etmək üçün keçid edin:
**https://www.scholarships.sk/en/main/programme-terms-and-conditions/foreign-applicants**

Ətraflı məlumat üçün Slovakiya tərəfi ilə əlaqə saxlaya bilərsiniz. Əlaqə vasitələri aşağıda verilmişdir.

Universitet müəllimləri, tədqiqatçılar, incəsənət sahəsində fəaliyyət göstərən şəxslər üçün proqram administratoru:
e-poçt: nsp-foreign@saia.sk
tel: +421-2-5930-4733 (birbaşa xətt)

Universitet tələbələri, doktorantura tələbələri üçün proqram administratoru:
e-poçt: nsp-foreign2@saia.sk
tel: +421-2-5930 4736 (birbaşa xətt)